

# Hərb tariximizin salnaməçisi

## *Tədqiqatçı jurnalist Şəmistan Nəzirli 80 yaşında*

***Çağdaş Azərbycan tədqiqat jurnalistikasının görkəmli nümayəndəsi, yurdsevər yazıçı-publisist, Azərbaycan Jurnalistlər və Yazıçılar birliklərinin üzvü, Xalq Cümhuriyyəti və milli hərb tariximizin, milli-mənəvi dəyərlərimizin yorulmaz araşdırıcısı Şəmistan Nəzirlinin anadan olmasının 80 illiyi tamam olub. Azərbaycan Mətbuat Şurası bu münasibətlə fədakar tədqiqatçı jurnalisti Xatirə diplumu ilə təltif etmişdir.***

***Ailə üzvlərinin, dostlarının və həmkarlarının iştirak etdiyi şənlik məclsində Diplomu ahıl jurnalista təqdim edən AMŞ sədri Əflatun Amaşov yubilyarı səmimi təbrik edərək demişdir:***

* Azərbaycanın tanınmış qələm sahibi Şəmistan Nəzirli müasir və keçmiş hərb tariximizi sevgi ilə öyrənən və təbliğ edən dəyərli tədqiqatçı və nasir, keçmişimizə əsaslanaraq indiki dövrü¬müzün qəhrəmanlıq və vətənpərvərlik salnaməsinə rəng qatan, ümumən tarixi şəxsiyyətlərə və proseslərə xüsusi yanaşması olan istedadlı jurnalist və publisistdir.

Polkovnik-leytenant Nəzirlinin yaradıcılıq dairəsinə diqqət yetirəndə heyrətlənirsən. Məqalələrini, kitabla¬rını, televiziya və radio proqramlarını saymaqla bitmir. Məhz buna görə də onu gələcəkdə də yüksək ruhlu görmək vacib və mütləqdir.

Əziz və hörmətli Şəmistan müəllim, 80 illik yubileyiniz Vətənimiz və xalqımız üçün düşərli olsun.

Təbriklərə qoşulan Xalq şairi Nəriman Həsənzadə, Qazax Xeyriyyə Cəmiyyənin sədri, professor İlham Pirməmmədov, Bakı Dövlət Universiteti jurnalistka fakültəsinin dosenti Mahmud Mahmudov, Ahıl Jurnalistlər Məclisinin rəhbəri, Əməkdar jurnalist Tahir Aydınoğlu, "Şirvannəşr"in direktoru, şair Qəşəm İsazadə, yazıçı-ssenarist Varis və digər çıxış edənlər Şəmistan Nəzirlinin Xalq şairi Səməd Vurğunun dünya şöhrətli həyat və yaradıcılığı, məşhur Qori Seminariyasının azərbaycalı yetirmələrinin milli-mədəni dəyərlərimizin qorunması, yaşadılması və zənginləşdirilməsində misilsiz fəaliyyəti, milli hərb tariximiz və general soydaşlarımızın ömür yolu, Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğu ilə bağlı silsilə araşdırmalarından və çoxsaylı kitablarındam söz açaraq bu zəngin materialların illər keçdikcə zənginləşərək son 2 əsrlik ictimai fikir tariximizin, eləcə də millimənəvi dəyərlər sisteminin önəmli fakt, hadisə və şəxsiyyətlərinin öyrənilməsində və təbliğində sanballı bir mənəvi xəzinəyə çevrildiyini vurğulamışlar.



***Təbriklərə və xoş sözlərə görə minnətdarlığını bildirən Şəmistan Nəzirli bundan sonra da qələmi ilə xalqımıza xidmətini davam etdirəcəyini bildirərək demişdir:***

***–1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması– minilliklərdən gələn dövlətçiliyimizin itirilməsindən 1 əsr sonra onun bərpa edilməsi təkcə son 2 əsrlik yox, həm də son min illik tariximizin ən böyük hadisəsi sayılmağa layiqdir. AXC-nin tarixinin ən önəmli hadisəsi isə milli ordunun yaradılması, 114 min kvadratkilometrlik ərazidə dövlət sərhədlərinin qurulmasıdır. Son 2 əsrin ikinci mühüm hadisəsi isə 1991-ci ildə xalqımızın bir əsrdə ikinci dəfə dövlət müstəqilliyi qazanmasıdır.***

Bu dövrün isə ən böyük hadisəsi xain qonşunun dünyadakı düşmənlərimizin köməyi ilə işğal etdiyi 20 faiz ərazimizin 2020-ci ilin 44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm bir Qələbə ilə geri qaytarıl¬ması oldu. 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusunun Bakını azad etməsini və 2020-ci ilin noyabrın 8-də Azərbaycan Silahlı Qüvvələrinin Şuşanı fəth etməsini şanlı hərb tariximizin ən şərəfli səhifələri sayıram.



Xatırladaq ki, Şəmistan Nəzirli 1942-ci il avqustun 12-də soykökü Qazaxın Şıxlı obasına bağlı olan Qərbi Azərbaycanın Loru nahiyyəsinin Yuxarı Körpülü kəndində anadan olmuşdur. İlk məqaləsi 16 yaşın¬da "Sovet Ermənistanı" qəzetində çap olunmuşdur. Ali jurnalist təhsili alanadək mətbuatda xeyli oçerk, hekayə və publisist məqalələrlə çıxış etmişdir. Orta məktəbdən sonra texniki peşə təhsili almış, orduda xidmət etmişdir.

***Uşaqlıq illərində kəndlərindən ötüb Borçalıya gedən Səməd Vurğunu görməsi ilə əfsanəvi şairin sirli-soraqlı həyat-yaradıcılıq aləminə açılan sonsuz maraq pəncərəsi və hərbi xidmət dövründə yazıçı Qılman İlkinlə yazışmaları, ədibin baş redaktoru olduğu "Azərbaycan "jurnallarının hər nömrəsini poçtla Şəmistana göndərməsi onun gələcək taleyini qəti olaraq ədəbi-publisistik yaradıcılığa, milli-mənəvi dəyərlərimizin tədqiq olunmasına yönləndirmişdir. Şəmistan Nəzirli 1967–1972-ci illərdə BDU-nun jurnalistika fakültəsində ali təhsil almışdır.***

Peşəkar jurnalist kimi Azərbaycan Dövlət Pedaqoji Universitetinin çoxti-rajlı qəzetində işə başlayan Şəmistan Nəzirli, 1 ildən sonra fəaliyyətini Azərbaycan Televiziyasının hərbi vətənpərvərlik redaksiyasında davam etdirmiş, burada 18 il müddətində redaktor və şöbə müdiri olmuşdur. Həmkarımız hərb və qəhrəmanlıq tariximizi öyrənən təcrübəli tədqiqatçı kimi Azərbaycan Ensiklopediyasının "Xatirə" redaksiyasınında 1 il şöbə müdiri vəzifəsində çalışmışdır.

***Uşaqlıq illərində kəndlərindən ötüb Borçalıya gedən Səməd Vurğunu görməsi ilə əfsanəvi şairin sirli-soraqlı həyat-yaradıcılıq aləminə açılan sonsuz maraq pəncərəsi və hərbi xidmət dövründə yazıçı Qılman İlkinlə yazışmaları, ədibin baş redaktoru olduğu "Azərbaycan "jurnallarının hər nömrəsini poçtla Şəmistana göndərməsi onun gələcək taleyini qəti olaraq ədəbi-publisistik yaradıcılığa, milli-mənəvi dəyərlərimizin tədqiq olunmasına yönləndirmişdir. Şəmistan Nəzirli 1967–1972-ci illərdə BDU-nun jurnalistika fakültəsində ali təhsil almışdır.***

Müstəqillik illərində Müdafiə Nazirliyində hərb tariximizin sistemli öyrənilməsinə başlananda Şəmistan Nəzirli Hərbi-Elmi Tədqiqatlar və Tarix İdarəsinə şöbə müdiri təyin edilmişdir. Yenidən Azərbaycan Televiziyasına dəvət edilən jurnalist 2 il "Hərbi proqramlar və salnamə" baş redaksiyası¬na rəhbərlik etmişdir. Sonrakı illərdə Müdafiə Nazirliyində Hərbi Elmi Mərkəz təşkil ediləndə Şəmistan müəllim baş elmi işçi kimi hərb tarixi şöbəsində fəaliyyətə cəlb edilmişdir.

Polkovnik-leytenant rütbəsi ilə xidməti təqaüdə çıxandan sonra hərbçilərin veteran təşkilatında ictimai fəaliyyətini davam etdirən fədakar soydaşımız gününün xeyli hissəsini yenə arxiv və kitabxanalarda keçirir, müstəqil araşdırmaçı axtarışlarını davam etdirir.

Şəmistan Nəzirli hazırda 33-cü kitabı sayılacaq nəşr görkəmli siyasi-hərbi xadim, Qarabağ xanlığının hakimi İbrahimxəlil xan haqqında tarixi roman üzərində işləyir.

Şəmistan Nəzirlinin "Vurğun keçib bu yerlərdən", "Vurğun ömrü məktublarda", "Ellər Vurğunu","Yaddaşlarda yaşayan Vurğun", "Qəribə talelər", "Əfsanəvi Mixaylo", "Qoridən gələn qatar", "Qacarlar", "Azərbaycan generalları", "Cümhuriyyət generalları", "Güllələnmiş Azərbaycan generalları", "Tam artilleriya generalı Səmədbəy Mehmandarov", "General Əliağa Şıxlinski və silahdaşları", "General Cəmşidxan Naxçivanski", "General Yadigarov qardaşları", "Topoqraf general İbrahim ağa Vəkilov", "1920-ci ildə Qarabağ döyüşləri", "Azərbaycan ordusunun 100 illiyi", "Qarxunlu Əşrəf bəy", "Arxivlərin sirri açılır", "Daş Salahlı Məmməd Koxa", "Nəzirli ocağının üç şairi", "Krım dəftəri" kitabları, "Səmədbəy" və "Cümhuriyyət genera¬lları" filmləri qiymətli tarixi irsimizin qızıl səhifələrinin salnamələşmiş toplusu olmaqla müəllifinə akademik bir nüfuz və ümumxalq şöhrəti gətirmişdir.

***Bu vaxtadək heç bir təltif və fəxri ad ummadan çalışmış yubilyar həmkarımız bir çox nüfuzlu yaradıcılıq mükafatlarına da layiq görülmüşdür. Çoxillik səmərəli fəaliyyətinə görə Azərbaycan Jurnalistlər Birliyinin 'Həsən bəy Zərdabi', Xalq şairi Səməd Vurğun haqqında silsilə əsərlərinə görə Azərbaycan Jurnalistləri Həmkarlar İttifaqının diplomu, 'Qacarlar" əsərinə görə İran Dostluq Cəmiyyətinin mükafatı, hərbi vətənpərvərlik mövzu¬sunda tarixi publisistik əsərlərinə görə 'General Həzi Aslanov" və 'General Əliağa Şıxlinski" mükafatları cəmiyyətin öz sevimli yazarına bəslədiyi hörmətin və verdiyi dəyərin ifadəsidir.***

**T.Rüstəmov**